**Əməkdaşlıq fəaliyyətləri**

- AQTA ilə Avstriyanın müvafiq qurumları arasında qida təhlükəsizliyi, bitki və heyvan sağlamlığı sahələrində mütəmadi əməkdaşlıq həyata keçirilir.
- Avstriyanın qida təhlükəsizliyi sisteminin beynəlxalq standartlara və Azərbaycan Respublikasının milli qida təhlükəsizliyi sisteminə uyğunluğunu nəzərə alaraq, həmçinin aparılmış təhlillərə əsaslanaraq, Azərbaycan Respublikasının “Qida təhlükəsizliyi haqqında" Qanunundan irəli gələrək 2025-ci il 1 avqust tarixində Avstriyanın qida təhlükəsizliyinə nəzarət sisteminin ekvivalentliyinin tanınması barədə AQTA tərəfindən qərar qəbul edilmişdir. Nəticədə, Avstriyanın yüksək riskli qida və yem məhsulları istehsal edən müəssisələri Agentlik tərəfindən əlavə qiymətləndirmə tədbirləri aparılmadan Avstriyada qeydiyyata alındıqdan və (və ya) təsdiq edildikdən sonra öz məhsullarını Azərbaycan Respublikasına ixrac edə biləcəklər.
- 2025-ci il 10-12 iyun tarixlərində Avstriya Respublikasının Vyana şəhərində “Rəqəmsallaşmanın potensialı” mövzusunda keçirilmiş “Vyana Qida Təhlükəsizliyi Forumu”nda AQTA-nın nümayəndə heyəti iştirak etmişdir.
- 2022-ci il 12–13 oktyabr tarixlərində AQTA nümayəndə heyəti Avstriyanın Vyana şəhərində işgüzar səfərdə olub. Səfər çərçivəsində AGES, Qida Təhlükəsizliyi İnstitutu və İstehlakçıların Sağlamlığı üzrə Federal İdarə ilə keçirilən görüşlərdə qida təhlükəsizliyi, idxal-ixrac tələbləri, laboratoriya fəaliyyəti və gələcək əməkdaşlıq imkanları müzakirə edilib.
- 2022-ci il 17 may tarixində Avstriyanın Səhiyyə və Qida Təhlükəsizliyi Agentliyinin (AGES) icraçı direktoru Tomas Kikincer Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun laboratoriyalarını ziyarət edərək, laborator infrastruktur və əməkdaşlıq perspektivləri ilə bağlı fikir mübadiləsi aparıb.
- 2022-ci il 16 fevral tarixində Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu ilə Avstriya Sağlamlıq və Qida Təhlükəsizliyi Agentliyi arasında qida təhlükəsizliyi sahəsində elmi-tədqiqat, təcrübə və məlumat mübadiləsini nəzərdə tutan Anlaşma Memorandumu imzalanıb.
- 2021-ci il 26 fevral tarixində Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu ilə Avstriyanın Qida və Sağlamlıq Agentliyi (AGES) arasında keçirilmiş videokonfransda ikitərəfli əməkdaşlığın genişləndirilməsi və Anlaşma Memorandumunun imzalanması perspektivləri müzakirə olunub.
- 2020-ci il 7 noyabr tarixində AQTA sədri Qoşqar Təhməzli ilə Avstriya Səhiyyə və Qida Təhlükəsizliyi Agentliyinin icraçı direktoru Tomas Kikinger arasında keçirilən videogörüşdə qida təhlükəsizliyi sahəsində əməkdaşlıq imkanları və regional vəziyyətlə bağlı məsələlər müzakirə olunub.
- 2019-cu il 27 iyun tarixində AQTA-da Avstriyanın Azərbaycandakı səfiri Aleksandr Bayerlin rəhbərlik etdiyi nümayəndə heyəti ilə keçirilən görüşdə qida təhlükəsizliyi sahəsində ikitərəfli əməkdaşlıq perspektivləri müzakirə olunub.